**Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**3 mart 2005-ci il** **№ 1** **Bakı şəhəri**

Ölkəmiz müstəqillik əldə etdikdən sonra cəmiyyətdə yeni iqtisadi münasibətlərin yaranması ilə əlaqədar talama cinayətlərinin təbiətində də müəyyən dəyişikliklər baş vermişdir. Konstitusiyaya uyğun olaraq ictimai mülkiyyət formasının aradan qalxması, yeni mülkiyyət forması olan xüsusi mülkiyyətin və bələdiyyə mülkiyyətinin yaranması cinayətlərin növünə və statistikasına da müəyyən təsir göstərmişdir. Əvvəllər özgə əmlakının talanması cinayətləri sırasında mənimsəmə cinayətləri daha çoxluq təşkil edirdisə məhkəmə təcrübəsi göstərir ki, hazırda bu üstünlük oğurluq, soyğunçuluq və quldurluq cinayətlərinin tərəfindədir.

Yeni cinayət qanunvericiliyi oğurluq, soyğunçuluq və qulduqlur cinayətləri üçün əvvəlki qanunvericilikdə olmayan yeni tövsifedici əlamətlər müəyyən etmişdir. Müasir dövrdə nəinki həmin kateqoriyadan olan cinayətlərin dairəsi, həm də elm və texnikanın inkişafı, yeni kommunikasiya vasitələrinin yaranması ilə əlaqədar bu cinayətlərin törədilməsi üsulları da dəyişilmişdir.

Oğurluq, soyğunçuluq və quldurluq cinayətləri üzrə məhkəmə təcrübəsinin ümumiləşdirilməsi göstərir ki, həmin səbəblərdən, xüsusilə də yeni cinayət qanunvericiliyinin qəbul edilməsi və tətbiqi ilə əlaqədar təqsirkarların əməllərinin tövsifi məsələlərində müəyyən çətinliklər də vardır. Bu xüsusilə oğurluq, soyğunçuluq və quldurluq cinayətlərinin özgə əmlakını mənimsəmə, dələduzluq, hədə qorxu ilə tələb etmə cinayətlərindən fərqləndirilməsi məsələlərinə aiddir. Təcrübədə soyğunçuluq cinayətlərinin hədə-qorxu ilə əmlakı tələb etmə cinayətləri ilə eyniləşdirilməsi hallarına yol verilir. Bu növ cinayətlərin törədilməsində bilavasitə iştirak etməyən təşkilatçıların və ya təhrikçilərin əməllərinin birgə icrası kimi tövsif edilməsi halları da mövcuddur.

Oğurluq, soyğunçuluq və quldurluq cinayətlərinə dair işlər üzrə vahid məhkəmə təcrübəsi yaratmaq məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu

**QƏRARA ALIR:**

**1.** Məhkəmələr oğurluğa, soyğunçuluğa və quldurluğa dair işlərə baxarkən nəzərə almalıdırlar ki, ~~qanuna görə~~ talama dedikdə özgə əmlakının tamah məqsədilə, hüquqazidd, əvəzsiz götürülməsi və bu əmlakın təqsirkarın və ya başqa şəxsin xeyrinə yönəldilməsindən ibarət hərəkətlər başa düşülür. [1]

**2.** Mülkiyyətçinin və ya əmlakın digər sahibinin və ya kənar şəxslərin olmadığı vaxt, yaxud həmin şəxslər olsa da onların hiss etmədikləri şəraitdə əmlakı qanunsuz götürən şəxsin əməli əmlakın gizli talanması (oğurluq) kimi tövsif edilməlidir. Yaranmış konkret şəraitdə təqsirkar gizli hərəkət etdliyini güman edirsə həmin şəxslər talama hadisəsini görmüş olsalar belə təqsirkarın əməli özgə əmlakının gizli talanması hesab edilməlidir.

**3.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 180-cı maddəsi (soyğunçuluq) ilə nəzərdə tutulan özgə əmlakının açıq talanması zamanı təqsirkar mülkiyyətçinin və ya əmlakın digər sahibinin və ya kənar şəxslərin gözü qarşısında özgə əmlakını talayır. Bu zaman təqsirkarın hərəkətlərinin qarşısını almaq üçün həmin şəxslər tərəfindən tədbir görülüb-görülməməsindən asılı olmayaraq təqsirkar şüurlu surətdə anlayır ki, ətrafdakılar əməlinin hüquqa zidd xarakter daşıdığını başa düşürlər.

**4.** Özgə əmlakı qanunsuz götürülərkən, orada olmuş kənar şəxs həmin hərəkətlərin hüquqazidd olmasını dərk etmirsə, yaxud da həmin kənar şəxs təqsirli şəxsin qohumudursa və təqsirli şəxs bununla əlaqədar əmlak götürülərkən, əks təsirə məruz qalmayacağına arxayındırsa, o zaman əməl özgə əmlakının oğurluğu kimi tövsif edilməlidir.Əgər sadalanan kənar şəxslər özgə əmlakının talanmasının qarşısının alınması üçün tədbir görmüşlərsə (məsələn, hüquqazidd hərəkətlərin dayandırılmasını tələb etmişlərsə), bu zaman təqsirli şəxs AR CM-nin 180-cı maddəsi ilə məsuliyyət daşımalıdır.

**5.** Oğurluq edilərkən, təqsirli şəxsin hərəkətləri mülkiyyətçi və ya əmlakın digər sahibi,yaxud da digər şəxs tərəfindən aşkar edilərsə, təqsirli şəxs bunu dərk etsə də əmlakın qanunsuz götürülməsindən ibarət hərəkətlərini davam etdirərsə və ya həmin əmlakı saxlamağa çalışarsa, o zaman belə hərəkətlər soyğunçuluq, həyat və ya sağlamlıq üçün təhlükəli zorakılıqla, yaxud da belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə müşayət edildiyi hallarda isə quldurluq kimi tövsif edilməlidir.

**6.** Soyğunçuluq və quldurluq cinayətini əmlakın hədə-qorxu ilə tələb edilməsi cinayətindən (CM-nin 182-ci maddəsi) fərqləndirərkən nəzərə almaq lazımdır ki, soyğunçuluq və quldurluqda əmlakın ələ keçirilməsi zor tətbiq edilməsi ilə eyni vaxtda və ya ondan dərhal sonra baş verirsə, özgə əmlakını hədə-qorxu ilə tələb etmə zamanı təqsirli şəxsin əməli əmlakın və ya ona olan hüquqların gələcəkdə əldə edilməsinə yönəlir.

**7.** Təqsirli şəxsin talanmış əmlakdan istifadə etmək və ya onun üzərində istədiyi kimi sərəncam vermək üçün real imkan əldə etdiyi vaxtdan (məsələn, talanmış əmlakı öz xeyrinə və ya başqalarının nəfinə yönəltmək, yaxud tamah məqsədilə başqa formada onun üzərində sərəncam vermək), oğurluq və ya soyğunçuluq cinayəti bitmiş hesab edilir. Quldurluq cinayəti isə özgənin əmlakını talamaq məqsədilə, həyat və ya sağlamlıq üçün təhlükəli zorakılıqla, yaxud da belə zorakılıq tətbiq ediləcəyi hədəsi ilə edilmiş basqın anından bitmiş sayılır.

**8.** Tamah məqsədi olmadan özgənin əmlakının əldə edilməsinə yönəlmiş, hüquqazidd hərəkətlər, məsələn əmlakı sonradan mülkiyyətçiyə qaytarmaq, yaxud əmlaka ehtimal olunan hüquqla bağlı həmin əmlakı götürmək niyyətilə törədilmiş hərəkətlər, oğurluq və ya soyğunçuluq cinayətlərinin tərkibini yaratmır. İşin hallarından asılı olaraq, buna əsaslar olduqda, belə hərəkətlər CM-nin 322-ci maddəsi və ya digər maddələri ilə tövsif edilməlidir.

Xuliqanlıq, zorlama və ya digər cinayətlər nəticəsində əmlak qanunsuz götürülərsə, şəxsin hansı məqsədlə əmlakı götürməsi müəyyən edilməlidir.

Təqsirli şəxs özgə əmlakını götürərkən, tamah məqsədi güdmüşsə,onun əmlakı əldə etmək üsul və vasitələrindən asılı olaraq, əməl mülkiyyət əleyhinə olan müvafiq cinayətin və xuliqanlıq, zorlama və ya digər cinayətlərin məcmusu qaydasında tövsif edilməlidir.

**9.** Özgə əmlakının talanmasında təşkilatçı, təhrikçi və ya köməkçi bilavasitə iştirak etməyibsə, cinayətin icraçısı tərəfindən törədilən əməl cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi kimi tövsif edilə bilməz. Belə halda, CM-nin 33.3-cü maddəsinə müvafiq olaraq, cinayətin təşkilatçısının, təhrikçisinin və ya köməkçisinin hərəkətləri CM-nin 32-ci maddəsinə istinad edilməklə tövsif edilməlidir.

**10.** Özgə əmlakının talanması əməlini qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi kimi tövsif edərkən, bilavasitə özgə əmlakının talanmasına yönəlmiş hərəkətlər edilənədək, cinayətin iştirakçıları arasında qabaqcadan belə bir əlbirlik olması, cinayətkar niyyətin həyata keçirilməsi üçün rolların bölüşdürülməsinə dair razılıq əldə edilməsi, həmçinin ~~*hər hansı icraçı*~~ *hər bir icraçı* və cinayətin digər iştirakçıları tərəfindən hansı konkret hərəkətlər edilməsi araşdırılmalıdır. Hökmdə törədilmiş cinayətin hər bir icraçısının və digər iştirakçısının (təşkilatçılarının, təhrikçilərinin, köməkçilərinin) barəsindəki sübutlara qiymət verilməlidir. [2]

**11.** CM-nin 34.2-ci maddəsinin mənasına görə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən oğurluq, soyğunçuluq və ya quldurluq cinayətinə görə cinayət məsuliyyəti həm də o zaman yaranır ki, özgə əmlakının bilavasitə götürülməsini, cinayətin iştirakçıları arasında əldə edilmiş razılaşmaya əsasən, onlardan biri həyata keçirsin. Cinayətin digər iştirakçıları, rolların bölgüsünə əsasən, cinayətin törədilməsində icraçıya bilavasitə kömək göstərməyə yönəlmiş hərəkətlər edərsə (məsələn, şəxs yaşayış sahəsinə girməsə də qapının, cəftənin, qıfılın sındırılmasında iştirak edərsə, əvvəlcədən əldə edilmiş razılığa əsasən talanmış əmlakı aparарsa, törədilən cinayət aşkar ediləcəyi hallarda digər iştirakçıları sığortalayarsa) onlar CM-nin 32.2-ci maddəsinə müvafiq olaraq birgə icraçı hesab edilir və belə hallarda əməlin tövsifi üçün CM-nin 32-ci maddəsinə istinad edilməsinə ehtiyac yoxdur.

Özgə əmlakının talanmasında bilavasitə iştirak etməyən, lakin cinayətin izinin itirilməsi, cinayətin bilavasitə icraçısına kömək göstərməklə əlaqədar olmayan maneələrin aradan qaldırılması, oğurluq əmlakın özgəninkiləşdirilməsi və s. ilə əlaqədar məsləhətləri və göstərişləri ilə cinayətin törədilməsinə kömək etmiş şəxslərin əməlləri CM-nin 32.5-ci maddəsinə istinad etməklə köməkçi formada iştirakçı kimi tövsif edilməlidir.

**12.** Özgə əmlakının oğurluq, soyğunçuluq və ya quldurluq yolu ilə qabaqcadan əlbir olan iki və ya daha çox şəxs və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən talanmasından ibarət hərəkətlər tövsif edilərkən, məhkəmələr nəzərə almalıdır ki, cinayətin törədilməsi gedişində qabaqcadan digər şəxslərlə əlbir olmayan şəxs, qabaqcadan əlbir olan şəxslərlə cinayət törətməkdə iştirak etmişsə, belə şəxs onun özü tərəfindən şəxsən törətdiyi konkret hərəkətlərə görə cinayət məsuliyyəti daşımalıdır.

**13. Əgər təqsirkar yaşına, anlaqsız olmasına və ya başqa hallara görə cinayət məsuliyyətinə alına bilməyən digər şəxslərdən istifadə etməklə oğurluq, soyğunçuluq və ya quldurluq cinayətləri törətmişsə onun əməli (*bilavasitə icraçı tərəfindən törədilən cinayət kimi* CM-nin müvafiq maddələrində ağırlaşdırıcı**

**tövsifedici əlamətlər olmadıqda) müvafiq olaraq CM-nin 177.1, 180.1 və ya 181.1-ci maddələri ilə tövsif edilməlidir. Hökm çıxararkən məhkəmə CM-nin 34-cü maddəsində göstərilən əsaslar olduqda CM-nin 61.1.3 və 61.1.5-ci maddələrinə istinad etməklə cinayətin bir qrup şəxsin tərkibində törədilməsi halını cəzanı ağırlaşdıran hal kimi tanımağa haqlıdır.**

***Cinayət Məcəlləsinin 177.1, 180.1, 181.1-ci maddələri cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxslərdən istifadə etməklə əməlin törədilməsini cinayət tərkibinin əlaməti olaraq nəzərdə tutmadığından həmin hal Cinayət Məcəlləsinin 61.1.5-ci maddəsinə əsasən bu cinayətlərə görə cəza təyin edilərkən cəzanı ağırlaşdıran hal qismində nəzərə alınır. Eynilə cinayət məsuliyyətinə cəlb edilə bilməyən psixi pozuntudan əziyyət çəkən şəxsin cinayətin törədilməsinə cəlb edilməsi CM-in 61.1.5-ci maddəsinə istinad edilməklə cəzanı ağırlaşdıran hal qismində nəzərə alınmalıdır***. [3]

**14.** CM-nin 32.2-ci maddəsinə müvafiq olaraq, cinayəti təşkil etmiş və ya aşkar surətdə cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxsləri oğurluq, soyğunçuluq və ya quldurluq cinayətinə təhrik etmiş şəxs, cinayətin icraçısı kimi cinayət məsuliyyəti daşıyır. Qanunda nəzərdə tutulan əsaslar olduqda, həmin şəxsin əməli, əlavə olaraq CM-nin 170-ci maddəsi ilə də tövsif edilməlidir.

**15.** Qabaqcadan əlbir olmaqla quldurcasına basqın törətmiş bir qrup təqsirli şəxsin niyyəti ilə silah və ya silah qismində istifadə edilən predmetlərin tətbiqi əhatə edilmişsə, o zaman onlardan yalnız biri silah və ya silah qismində istifadə edilən predmet tətbiq etsə belə, qrup iştirakçılarının hamısı birgə icraçı kimi CM-nin 181.2.5-ci maddəsi ilə məsuliyyət daşıyır.

Bir qrup şəxsin özgə əmlakını oğurlamaq barədə qabaqcadan razılığa gəldiyi hallarda birgə icraçılardan hər hansı biri əldə edilmiş razılıqdan kənara çıxaraq, soyğunçuluq və ya quldurluq kimi hüquqi qiymət verilən əməl törətmişsə, həmin şəxsin əməli müvafiq olaraq CM-nin 180 və ya 181-ci maddəsi ilə tövsif edilməlidir.

Oğurluq və soyğunçuluq cinayəti başa çatdıqdan sonra təqsirkar şəxs tərəfindən zərərçəkmişə, yaxud onun yaxalanması üçün tədbir görən şəxsə, o cümlədən hakimiyyət nümayəndəsinə qarşı yaxalanmaqdan xilas olmaq məqsədilə onların sağlamlığı və ya həyatları üçün təhlükəli zorakılıq tətbiq edildiyi hallarda bu əməllər müvafiq olaraq oğurluq və ya soyğunçuluq, habelə şəxsiyyət əleyhinə və ya hakimiyyət nümayəndəsinə müqavimət göstərmə cinayətlərinin məcmusu üzrə tövsif edilməlidir.

**16.** Oğurluq, soyğunçuluq və quldurluq cinayətləri müvafiq olaraq CM-nin 177.3.1, 180.3.1, 181.3.1-ci maddələri ilə tövsif edilərkən nəzərə almaq lazımdır ki, həmin əməllər o vaxt mütəşəkkil dəstə tərəfindən törədilən əməllər kimi qəbul edilir ki, bu dəstədə bir və ya bir neçə cinayətin törədilməsi üçün qabaqcadan birləşmiş iki və ya daha çox şəxsdən ibarət cinayətkar qrup iştirak etmiş olsun. (CM-nin 34.3-cü maddəsi)

Cinayət törətmək üçün qabaqcadan əlbir olan bir qrup şəxs anlayışından fərqli olaraq, mütəşəkkil dəstə həm də özünün sabitliyi, tərkibində təşkilatçısının (rəhbərinin) və birgə cinayətkar fəaliyyət üçün əvvəlcədən hazırlanmış planın olması, cinayətin törədilməsinə hazırlıq və cinayətkar niyyətin həyata keçirilməsi zamanı qrup üzvləri arasında funksiyaların bölüşdürülməsi ilə xarakterizə olunur.

Mütəşəkkil dəstənin sabitliyi təkcə dəstənin uzun müddət ərzində mövcudluğunda, qrup üzvlərinin dəfələrlə cinayət törətməsində deyil, onların texniki cəhətdən təmin edilməsində, hətta bir cinayətin törədilməsi üçün uzun müddət hazırlıq görmələrində, həmçinin digər hallarda da (məsələn, pulların və ya digər maddi qiymətlilərin götürülməsi məqsədilə saxlanc yerlərinə girilməsi üçün mütəşəkkil dəstə üzvlərinin xüsusi hazırlıq keçməsində) özünü göstərə bilər.

Bu cinayətlərin mütəşəkkil dəstə tərəfindən törədilməsi qənaətinə gələrkən, bütün ~~*birgə*~~ iştirakçıların hərəkətləri, onların törədilmiş əməldə rolundan asılı olmayaraq, CM-nin 32-ci maddəsinə istinad edilmədən, birgə icraçı kimi tövsif edilməlidir. [4]

Digər şəxsi və ya bir qrup şəxsi konkret cinayət törətmək üçün mütəşəkkil dəstə yaratmağa sövq edən şəxs dəstə iştirakçılarının müəyyən edilib seçilməsində, cinayətin (cinayətlərin) həyata keçirilməsində bilavasitə iştirak etməmişsə, onun hərəkətləri, CM-nin 32.4-cü maddəsinə istinad edilməklə, mütəşəkkil dəstənin törətdiyi cinayətlərdə iştirakçı kimi tövsif edilməlidir.

~~***17.*** *CM-nin 177-ci maddəsinin qeydinin 3-cü bəndinə müvafiq olaraq oğurluq, soyğunçuluq və ya quldurluq cinayətlərinin «təkrarlıq» əlamətləri üzrə tövsif edilməsi üçün CM-nin 177, 178, 180, 181-ci maddələri ilə, habelə CM-nin 179. 182, 183, 184 və 185-ci maddələri ilə nəzərdə tutulan cinayətlərin törədilməsi (hər hansı ardıcıllıqla) əsas ola bilər. Oğurluq, soyğunçuluq və quldurluq cinayətlərindən əvvəl CM-nin 217, 227, 232 və 235-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlərdən hər hansı birinin törədilməsi də eyni qaydada tövsif edilir.*~~

~~*CM-nin 16.3-cü maddəsinə müvafiq olaraq oğurluq, soyğunçuluq və ya quldurluq törətmiş şəxslərin əməlini yuxarıda qeyd edilən əlamətlə (CM-nin 177.2.2, 180.2.2 və 181.2.2-ci maddələri ilə)həm də o zaman tövsif etmək olar ki, AR CM-nin 177-ci maddəsinin qeydinin 3-cü bəndində sadalanan cinayətlərə görə məhkumluq yeni cinayət törədilən anda ödənilməmiş və ya götürülməmiş olsun və törədilmiş əməlləri CM-nin 177.3.3, 180.3.3 və 181.3.4-cü maddələri ilə hüquqi tövsif etmək üçün əsaslar olmasın. Eyni mənbədən götürülən, vahid qəsdlə əhatə olunan, bir cinayət hərəkətlərinin məcmusunu təşkil edən, bir sıra oxşar cinayət hərəkətlərindən ibarət, davam edən talama cinayətini, təkrar törədilmiş talamadan fərqləndirmək lazımdır.*~~

**17.** *Cinayət Məcəlləsinin 177-ci maddəsinin qeydinin 3-cü bəndinə görə müvafiq olaraq oğurluq, soyğunçuluq və quldurluq cinayətlərinin "təkrar törədilməsi" əlaməti üzrə tövsif edilməsi üçün CM-in 177, 180, 181-ci maddələri ilə, habelə CM-in 178, 179, 182, 183-cü maddələri ilə nəzərdə tutulan iki və ya daha çox cinayətlərin (hər hansı ardıcıllıqla) törədilməsi tələb olunur. Oğurluq, soyğunçuluq, quldurluq cinayətlərindən əvvəl Cinayət Məcəlləsinin 213-3, 217, 227, 232 və 235-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlərdən hər hansı biri törədildiyi hallar da oğurluq, soyğunçuluq, quldurluq "cinayətlərin təkrarən törədilməsi" əlaməti üzrə tövsif edilməlidir.*

*Cinayət Məcəlləsinin 16.3-cü maddəsinə müvafiq olaraq oğurluq və ya soyğunçuluq və ya quldurluq cinayətini törətmiş şəxsin əməlini "cinayətlərin təkrarən törədilməsi" əlaməti üzrə o halda tövsif etmək olar ki, yeni cinayəti törədən vaxt şəxs əvvəllər törətdiyi cinayətə görə məhkum edilmiş (o cümlədən məhkumluğu götürülmüş və ya ödənilmiş) və yaxud cinayət məsuliyyətindən azad edilmiş olmasın, eləcə də əvvəlki əmələ görə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçməsin.*

*Cinayətin predmetinin eyni mənbədən götürülməsi yolu ilə törədilən, bir cinayəti təşkil edən oxşar hərəkətlər məcmusundan ibarət olub vahid qəsdlə əhatə olunan davam edən talamanı təkrar törədilən talamadan fərqləndirmək lazımdır.* [5]

**18.** Şəxs, tövsifedici əlamətlər olmadan, özgə əmlakının eyni formada iki və ya daha çox müstəqil talanmasına görə (məsələn, müxtəlif mülkiyyətçilərdən bir neçə dəfə oğurluq edilməsi) məhkum edilməmişsə, yaxud cinayət məsuliyyətinə cəlb etmə müddətləri keçməmişsə, bu zaman həmin hərəkətlər, CM-nin 16.2-ci maddəsinə müvafiq olaraq, CM-nin 177.2.2, 180.2.2 və ya 181.2.2-ci maddələrində nəzərdə tutulmuş «təkrar» törədilmiş cinayət kimi tövsif edilməlidir. Belə halda cinayətkar hərəkətlər cinayətlərin məcmusunu təşkil etmir. Təqsirkarın iradəsindən asılı olmayaraq cinayət başa çatmadıqda da məsələyə bu mövqedən yanaşılmalıdır.

Bununla belə şəxsin özgə əmlakını müxtəlif formada bir neçə dəfə talaması (məsələn oğurluq və soyğunçuluq), yaxud CM-nin 177.1, 177.2, 177.3, 180.1, 180.2, 180.3, 181.1, 181.2, 181.3-cü maddələri ilə tövsif edilməli olan bir neçə cinayət törətməsi hallarında, şəxs həmin əməllərə görə məhkum edilməmişsə, göstərilən cinayətlərin məcmusu yaranır. Bu zaman vaxt etibarilə sonrakı epizodlar cinayələrin « təkrarlığı» əlaməti ilə tövsif edilməlidir.

~~*Əgər şəxs CM-nin müvafiq olaraq, 177.2.1, 177.2.2, 177.2.3, 177.2.4, 177.3.1, 177.3.2, 177.3.3 və ya 180.2.1, 180.2.2, 180.2.3, 180.2.4, 180.2.5, 180.3.1, 180.3.2, 180.3.3, yaxud da 181.2.1, 181.2.2, 181.2.3, 181.2.4, 181.2.5, 181.3.1, 180.3.2, 180..3.3, 181.3.4-cü maddələri ilə nəzərdə tutulmuş cinayətlərin real məcmusunu yaratmayan, ağırlaşdırıcı hallarda bir neçə oğurluq, soyğunçuluq və quldurluq cinayəti törətmişsə, o zaman onun əməli CM-nin daha ağır cəza nəzərdə tutan müvafiq maddəsi ilə tövsif edilməli, hökmün təsviri-əsaslandırıcı hissəsində isə bütün tövsifedici əlamətlər sadalanmalıdır.*~~

*“Əgər şəxs Cinayət Məcəlləsinin müvafiq olaraq, 177.2.1, 177.2.2, 177.2.3, 177.2.4, 177.3.1, 177.3.2, 177.4 və ya 180.2.1, 180.2.2, 180.2.3, 180.2.4, 180.2.5, 180.3.1, 180.3.2, 180.4 yaxud da 181.2.1, 181.2.2, 181.2.3, 181.2.4, 181.2.5, 181.3.1, 181.3.2, 181.4-cü maddələri ilə nəzərdə tutulmuş cinayətlərin real məcmusunu yaratmayan, ağırlaşdırıcı hallarda oğurluq, soyğunçuluq və quldurluq cinayəti törətmişsə, o zaman onun əməli CM-in daha ağır cəza nəzərdə tutan müvafiq maddəsi ilə tövsif edilməli, hökmün təsviri-əsaslandırıcı hissəsində isə bütün tövsifedici əlamətlər sadalanmalıdır.* [6]

**19.** Yaşayış sahəsinə, habelə binaya, anbara və ya başqa saxlanc yerlərinə qanunsuz daxil olmaq dedikdə oğurluq, soyğunçuluq və ya quldurluq məqsədilə həmin yerlərə gizli və ya açıq formada girmək başa düşülməlidir. «Yaşayış sahəsinə binaya, anbara və ya başqa saxlanc yerlərinə daxil olmaq» anlayışına həmin yerlərə girmədən talanacaq predmetlərin oradan müxtəlif üsul və vasitələrlə götürülməsi, çıxarılması və s. kimi hərəkətlər də aiddir.

Avtomobil və digər nəqliyyat vasitəsinin kabinəsi, oturacaq salonu saxlanc yerlərinə aid olmadığından oradan hər hansı əşyanın gizlin götürülməsi saxlanc yerlərinə daxil olma kimi qiymətləndirilə bilməz.

**20.** Yaşayış sahəsi dedikdə yaşayış və qeyri yaşayış sahələri də daxil olmaqla mülkiyyət formasından asılı olmayaraq mənzil fonduna daxil olan, daimi və ya müvəqqəti yaşamaq üçün yararlı hesab edilən, həmçinin mənzil fonduna daxil olmasa da müvəqqəti yaşamaq üçün nəzərdə tutulmuş fərdi yaşayış evi, mənzil sahəsi başa düşülür.

Bina dedikdə istehsalat və ya digər xidməti məqsədlər üçün müvəqqəti olaraq insanların və ya maddi nemətlərin yerləşdirilməsi məqsədilə nəzərdə tutulmuş, mülkiyyət formasından asılı olmayan tikililər, qurğular başa düşülür.

Anbar və başqa saxlanc yerləri məfhumuna maddi nemətlərin daimi və ya müvəqqəti saxlanması üçün nəzərdə tutulmuş, hasarla və ya digər texniki vasitələrlə təchiz olunmuş və ya başqa cür mühafizə ilə təmin edilmiş mülkiyyət formasından asılı olmayan, yaşayış tikililərindən təcrid edilmiş təsərrüfat tikililəri, ərazi sahələri, ~~magistral boru kəmərləri və~~ digər qurğular aiddir. [7]

**21.** Oğurluq, soyğunçuluq və quldurluq cinayəti törətmiş şəxsin əməlinin «yaşayış sahəsinə, habelə binaya və ya başqa saxlanc yerlərinə daxil olmaq» əlaməti ilə tövsif edilməsi məsələsi həll edilərkən, məhkəmələr təqsirli şəxsin həmin yerlərdə hansı məqsədlə olmasını, həmçinin onun özgə əmlakına yiyələnmək qəsdinin hansı anda meydana gəlməsini aydınlaşdırmalıdır. Şəxs cinayət niyyəti olmadan oraya hüquqamüvafiq qaydada daxil olmuşsa, lakin sonra o, oğurluq, soyğunçuluq və ya quldurluq cinayəti törətmişsə, o zaman onun əməlində «daxil olma» əlaməti yoxdur.

Şəxsin yaşayış sahəsinə, habelə binaya və ya başqa saxlanc yerlərinə qohumluğa və ya tanışlığa görə, zərərçəkmişin və ya əmlakı mühafizə edən şəxsin razılığı ilə daxil olması, yaxud onun vətəndaşların azad girib-çıxa biləcəyi mağazanın ticarət zalında, ofisdə və digər yerlərdə olması qeyd edilən tövsifedici əlamətlərin mövcudluğunu istisna edir.

Şəxs «daxil olmaq» əlamətilə özgə əmlakının talanması əməlində təqsirli bilinmişsə, onun hərəkətlərini əlavə olaraq CM-nin 157-ci maddəsi ilə də tövsif etməyə ehtiyac yoxdur. Belə ki, bu cür qanunsuz hərəkət oğurluq, soyğunçuluq və ya quldurluq cinayətlərinin tövsifedici ~~*əlamətləridir*~~ *əlamətidir*. [8]

**22.** Şəxs, oğurluq, soyğunçuluq və ya quldurluq cinayəti törədərkən, qapıları, qıfılları, gözlükləri və s. qırmaqla, sındırmaqla yaşayış sahəsinə, habelə binaya və ya başqa saxlanc yerlərinə daxil olursa, o zaman əməl, müvafiq olaraq, CM-nin 177.2.3, 180.2.3 və ya 181.2.3-cü maddəsi ilə tövsif edilməli, əməlin əlavə olaraq CM-nin 186-cı maddəsi ilə də tövsif edilməsinə ehtiyac qalmır. Belə ki, bu halda zərərçəkmişin qeyd edilən əmlakının qəsdən məhv edilməsi ağırlaşdırıcı halda talama cinayətinin törədilməsi üsuludur.

Oğurluq, soyğunçuluq və ya quldurluq cinayətləri törədilərkən, talamanın predmeti olmayan zərərçəkmişin əmlakı (məsələn, mebel, məişət texnikası və digər şeylər) qəsdən məhv edilərsə və ya zədələnərsə, bu zaman əməl, buna əsaslar olarsa, əlavə olaraq CM-nin 186-cı maddəsi ilə də tövsif edilməlidir.

**23.** Həyat və ya sağlamlığ üçün təhlükəli olmayan zor tətbiq etmək (CM-nin 180.2.4-cü maddəsi) dedikdə döymə və ya digər zorakı hərəkətlərlə zərərçəkmişə fiziki ağrı yetirmə və ya onun azadlığının məhdudlaşdırılması ilə bağlı hərəkətlər etmək (əl-ayağını bağlama, qollarına qandal keçirmə, ağzı bağlı otaqda saxlama və s.) başa düşülməlidir.

CM-nin 181.1-ci maddəsində «həyat və sağlamlıq üçün təhlükəli zorakılıq tətbiq ediləcəyi hədəsi hücuma məruz qalmış şəxsi (şəxsləri) öldürməklə, sağlamlığına zərər vurmaqla, onlara işgəncə verməklə və bu kimi psixi təsirləri ehtiva edir. Belə hədə həm

sözlərlə, həm də hərəkətlərlə (məsələn zərərçəkmişin boğazına kəndir keçirməklə və s.) ifadə oluna bilər.

Həyat və sağlamlıq üçün təhlükəli zorakılıq (CM-nin 181-ci maddəsi) dedikdə, elə zorakılıq başa düşülməlidir ki, təqsirkarın hərəkətləri zərərçəkmişə ağır, az ağır zərər vurma, həmçinin sağlamlığın qısa müddət pozulmasına və ya ümumi əmək qabiliyyətinin cüzi itirilməsinə səbəb olmuş sağlamlığa yüngül zərər vurma ilə nəticələnmiş olsun.

Özgənin əmlakını ələ keçirmək məqsədilə hücuma məruz qalmış şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli zorakılıqla bağlı basqın o zaman CM-nin 181.1-ci maddəsi ilə tövsif edilir ki, zərərçəkmişin sağlamlığına zərər yetirilməsə də, basqın anında onun həyatı və ya sağlamlığı üçün real təhlükə yaranmış olsun.

Quldurluq basqını nəticəsində zərərçəkmişin sağlamlığına qəsdən yüngül və ya az ağır zərər yetirilərsə, həmin əməl quldurluq cinayətinin tərkibi ilə əhatə olunur və əməlin əlavə olaraq CM-nin 127, 128-ci maddələri ilə də tövsif edilməsi tələb olunmur. Belə halda, CM-nin 181.2, 181.3-cü maddələrində nəzərdə tutulmuş ağırlaşdırıcı hallar mövcud deyildirsə, əməl CM-nin 181.1-ci maddəsi ilə tövsif edilməlidir.

Quldurluq basqını zamanı özgə əmlakı ələ keçirilərkən, zərərçəkmişin sağlamlığına ağır zərər vurularsa və bu ehtiyatsızlıqdan onun ölümünə səbəb olarsa, əməl cinayətlərin məcmusu qaydasında CM-nin 181.3.3 və 126.3-cü maddələri ilə tövsif edilməlidir.

Özgə əmlakının ələ keçirilməsi qeyri müəyyən xarakter daşıyan zorakılıq tətbiq ediləcəyi hədəsi ilə törədilərsə, şəxsin əməlinin soyğunçuluq və ya quldurluq olması məsələsi, işin bütün halları: cinayətin törədilmə yeri və vaxtı, basqın edənlərin sayı, zərərçəkmişin hədələndiyi predmetlərin xarakteri, basqın edənlərin fiziki hədə tətbiq etmək niyyətlərini təsdiq edən hər hansı nümayişkəranə hərəkətlərinin edilməsi və s. nəzərə alınmaqla həll edilməlidir.

Özgə əmlakının talanması gedişində zərərçəkmişin zorakılıqla azadlığı məhdullaşdırılarsa, şəxsin hərəkətində soyğunçuluq və ya quldurluq cinayətinin olması, zərərçəkmişin həyatı və ya sağlamlığı üçün bu hərəkətlərin xarakteri və təhlükəlilik dərəcəsi, həmçinin baş vermiş və ya baş verə biləcək nəticə (məsələn, əli-qolu bağlı zərərçəkmişin soyuq otaqda və ya kamerada saxlanılması, onun kömək üçün müraciət etmək imkanlarından məhrum edilməsi) nəzərə alınmaqla həll edilməlidir.

**24.** Şəxs quldurluq basqını zamanı zərərçəkmişi öldürərsə, onun əməli AR CM-nin 120.2.11 və 181.3.3-cü maddələri ilə tövsif edilməlidir. Quldurluq basqını törətmiş şəxsin əməlində digər ağırlaşdırıcı hallar (məsələn, qabaqcadan əlbir olan bir qrup şəxs, yaşayış sahəsinə və s. yerlərə qanunsuz girmək, silah tətbiq etmək və s.) olarsa, quldurluğun bu obyektiv əlamətləri hökmün təsviri-əsaslandırıcı hissəsində göstərilməlidir.

**25.** Təqsirli şəxsin əməli AR CM-nin 181.2.5-ci maddəsi ilə tövsif edildikdə, məhkəmələr basqın zamanı tətbiq edilmiş predmetin canlı qüvvənin və ya digər hədəfin vurulması üçün yararlı silah olub-olmamasını ekspert rəyi əsasında müəyyən etməlidir. Qanunda göstərilən hallar mövcud olduqda, belə şəxsin əməli, əlavə olaraq AR CM-nin 228-ci maddəsi ilə də tövsif edilməlidir.

Silah qismində istifadə edilən əşya dedikdə, zərərçəkmişə həyatı və ya sağlamlığı üçün təhlükəli xəsarətlər yetirə bilən predmetlər (məsələn, qatlanan və ya mətbəx

bıçaqları, ülgüc, ling, dəyənək, balta və i.a.), həmçinin, hədəfi vurmaq, zərərçəkmişi halsızlaşdırmaq, onun müqavimətini qırmaq üçün nəzərdə tutulmuş predmetlər (məsələn, mexaniki püsgürdücülər, gözyaşardıcı və qıcıqlandırıcı maddələrlə doldurulmuş aerozol və digər qurğular) başa düşülməlidir.

Şəxs silahı yalnız nümayiş etdirmişsə və ya aşkar yararsız və ya doldurulmamış silahla zərərçəkmişin həyatı və ya sağlamlığı üçün təhlükəli olan xəsarət yetirmək niyyəti olmadan həmin predmetlərlə onu hədələmiş və ya silah tətbiq etmə görüntüsü yaratmışsa, (məsələn, silah maketi, oyuncaq xəncəl və i.a.), digər ağırlaşdırıcı hallar olmadıqda işin konkret hallarından asılı olaraq onun hərəkətləri AR CM-nin 181.1-ci maddəsində nəzərdə tutulan quldurluq kimi tövsif edilməlidir. Zərərçəkmiş silahın yararsız və ya doldurulmamış olmasını, yaxud da silah tətbiq etmə görüntüsü yaradılmasını başa düşmüşsə, dərk etmişsə, əməl soyğunçuluq kimi tövsif edilməlidir.

Özgə əmlakını talamaq məqsədilə zərərçəkmişi köməksiz vəziyyətə salmaq üçün onun iradəsinə zidd, yaxud aldatma yolu ilə orqanizminə güclü təsiredici, zəhərli və ya bihuşedici vasitələr yeridilməsi quldurluq kimi tövsif edilməlidir. Həmin məqsədlə zərərçəkmişin orqanizminə onun həyatı və ya sağlamlığı üçün təhlükəli olmayan vasitələr, maddələr yeridilmişsə, o zaman əməl, nəticəsindən asılı olaraq, zor tətbiq etməklə törədilən soyğunçuluq kimi tövsif olunmalıdır. Qeyd edilən cinayətlər törədilərkən, tətbiq olunmuş vasitələrin, maddələrin təsirinin xüsusiyyəti və xarakteri, lazım gəldikdə müvafiq mütəxəssis və ya ekspert vasitəsilə müəyyən oluna bilər.

Özgə əmlakını talamaq məqsədilə, insanın həyatı və ya sağlamlığı üçün təhlükə yaradan itlərdən və ya digər heyvanlardan istifadə edən, yaxud bu yolla zor tətbiq etmək hədəsindən istifadə edən şəxsin əməli, işin konkret hallarından asılı olaraq, AR CM-nin 181.2.5-ci maddəsi ilə tövstf edilməlidir.

~~***26.** Xeyli miqdarda və ya külli miqdarda ziyan vurmaq tövsifedici əlamətilə, oğurluq və ya soyğunçuluq cinayəti törətmiş şəxsin əməli tövsif edilərkən, məhkəmələr AR CM-nin 177-ci maddəsinin qeydinin 2-ci bəndini rəhbər tutmalıdır.*~~

**26***. Məhkəmələr nəzərə almalıdırlar ki, Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd"inin 1-ci bəndinə əsasən Cinayət Məcəlləsinin 177.1-ci maddəsində nəzərdə tutulmuş oğurluğa görə cinayət məsuliyyətinin yaranması üçün əmlakın mülkiyyətçisinə və ya digər sahibinə beş yüz manatdan yuxarı (lakin beş min manatdan artıq olmayan) məbləğdə ziyanın vurulması tələb olunduğu halda, Cinayət Məcəlləsinin 177.2.1-177.2.3-2, 177.2.5 və 177.3.1-ci maddələrində nəzərdə tutulmuş cinayətlərə görə cinayət məsuliyyəti vurulmuş ziyan yüz manatdan yuxarı məbləğdə olduqda yaranır.*

*Vurulmuş ziyanın cinayət məsuliyyətini şərtləndirən minimal məbləği barədə tələb soyğunçuluq və quldurluq cinayətlərinə şamil olunmur və həmin əməllərə görə cinayət məsuliyyəti vurulmuş ziyanın Cinayət Məcəlləsinin 177-ci maddəsinin "Qeyd"inin 1-ci bəndində göstərilən məbləğlərdən az olub-olmamasından asılı olmayaraq yaranır.*

*Oğurluq, soyğunçuluq, quldurluq cinayətini törətmiş şəxsin əməli "xeyli miqdarda" və ya "külli miqdarda" və ya "xüsusilə külli miqdarda" ziyan vurma əlaməti üzrə tövsif edilərkən məhkəmələr Cinayət Məcəlləsinin 177-ci maddəsinin qeydinin 2-ci bəndini rəhbər tutmalıdırlar.* [9]

~~***27.** Özgə əmlakının bir neçə dəfə talanması hərəkətləri o zaman AR CM-nin müvafiq olaraq, 177.2.4, 180.3.2, 181.2.4 və ya 177.3.2, 180.3.2, 181.3.2-ci maddələrində nəzərdə tutulmuş xeyli və ya külli miqdarda ziyan vurma tövsifedici*~~

~~*əlamətləri ilə tövsif edilə bilər ki, talanmış əmlakın ümumi məbləği, müvafiq olaraq, şərti maliyyə vahidinin min mislindən yeddi min mislinədək və ya şərti maliyyə vahidinin yeddi min mislindən artıq olsun və bu hərəkətlərin eyni üsulla törədilməsi və qəsdin xeyli və ya külli miqdarda əmlakın talanmasına yönəlməsi halları təsdiq edilsin.*~~

~~*Qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, müvafiq olaraq, xeyli və ya külli miqdarda ziyan vurma tövsifedici əlamətləri ilə özgə əmlakının talanması hərəkətlərinin tövsifi məsələsi həll edilərkən,cinayətkar qrupun bütün iştirakçılarının taladığı əmlakın ümumi dəyəri nəzərə alınmalıdır. Belə hallarda təqsirkarların ayrı-ayrılıqda taladıqları əmlakın məbləği, talanmış əmlakın hansı ölçüdə bölüşdürülməsi onların əməlinin tövsifinə təsir etmir.*~~

~~*Şəxs quldurluq basqını törədərkən, zərərçəkmişə dəymiş ziyan şərti maliyyə vahidinin min mislindən az olarsa, AR CM-nin 181.2, 181.3-cü maddələrində nəzərdə tutulmuş başqa ağırlaşdırıcı hallar mövcud olmadıqda əməl AR CM-nin 181.1-ci maddəsi ilə tövsif edilməlidir. Bununla belə quldurluq basqını törətmiş şəxs xeyli və ya külli miqdarda əmlakı əldə etmək məqsədi güdmüşsə, lakin faktiki olaraq həmin məbləğlərdə əmlakı əldə etməmişsə, yaxud əldə etdiyi əmlakın məbləği şərti maliyyə vahidinin min mislindən azdırsa, bu zaman onun əməli, əldə etmək istədiyi əmlakın məbləğindən asılı olaraq CM-nin 181.2.4 və ya 181.3.2-ci maddəsi ilə tövsif edilməlidir.*~~

~~*Məhkəmələr nəzərə almalıdır ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 69-cu maddəsinin (xırda talama) qeydinə müvafiq olaraq, talanmış əmlakın dəyəri şərti maliyyə vahidinin otuz mislindən yuxarı olmadıqda, belə əməl (oğurlama, mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə və ya dələduzluq yolu ilə özgənin əmlakını talama) inzibati xəta hesab edilir. Ona görə də oğurlanmış əmlakın dəyəri şərti maliyyə vahidinin otuz mislindən az olduqda, belə hərəkətlər CM-nin 177-ci maddəsinin tərkibini yaratmır. Bununla belə, AR CM-nin 180 və ya 181-ci maddələrinin tərkibinin yaranması üçün talanmış əmlakın dəyərinin şərti maliyyə vahidinin otuz mislindən az olub-olmaması əhəmiyyət kəsb etmir.*~~

~~*Talanmış əmlakın qiyməti müəyyən edilərkən, cinayət törədilən vaxt həmin əmlakın faktiki dəyəri əsas götürülməlidir. Talanmış əmlakın qiyməti barədə məlumat olmadıqda talanmış əmlakın qiyməti ekspert rəyi ilə müəyyən edilə bilər.*~~

**27.** *Özgə əmlakının bir neçə dəfə talanması hərəkətləri o zaman Cinayət Məcəlləsinin 177.2.4, 180.2.5, 181.2.4-cü maddələri ilə - "xeyli miqdarda" ziyan vurma əlaməti üzrə, Cinayət Məcəlləsinin 177.3.2, 180.3.2, 181.3.2-ci maddələri ilə - "külli miqdarda" ziyan vurma əlaməti üzrə, Cinayət Məcəlləsinin 177.4, 180.4, 181.4-cü maddələri ilə - "xüsusilə külli miqdarda" ziyan vurma əlaməti üzrə tövsif edilə bilər ki, talanmış əmlakın ümumi miqdarı müvafiq olaraq beş min manatdan yuxarı, lakin əlli min manatdan artıq olmayan dəyərdə və ya əlli min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan dəyərdə və ya beş yüz min manatdan yuxarı dəyərdə olsun və qəsdin məhz xeyli və ya külli və ya xüsusilə külli miqdar təşkil edən əmlakın ələ keçirilməsinə yönəlməsi təsdiq edilsin.*

*Qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, müvafiq olaraq, xeyli və ya külli və ya xüsusilə külli miqdarda ziyan vurma tövsifedici əlamətləri ilə özgə əmlakının talanması hərəkətlərinin tövsifi məsələsi həll edilərkən cinayətkar qrupun bütün iştirakçılarının taladığı əmlakın ümumi dəyəri nəzərə alınmalıdır. Belə hallarda təqsirkarların ayrı-ayrılıqda taladıqları əmlakın məbləği, talanmış əmlakın hansı ölçüdə bölüşdürülməsi onların əməlinin tövsifinə təsir etmir.*

*Oğurluq, soyğunçuluq, quldurluq edən şəxsin məqsədi xeyli miqdarda özgə əmlakını ələ keçirmək olduğu halda, onun iradəsindən asılı olmayan səbəblərdən faktiki ələ keçirilən əmlak xeyli miqdardan az olarsa, müvafiq olaraq əməllər Cinayət Məcəlləsinin 29-cu maddəsinə istinad olunmaqla xeyli miqdarda ziyan vurmaqla oğurluğa cəhd kimi Cinayət Məcəlləsinin 177.2.4-cü maddəsi ilə, xeyli miqdarda soyğunçuluğa cəhd kimi Cinayət Məcəlləsinin 180.2.5-ci maddəsi ilə və başa çatmış quldurluq kimi Cinayət Məcəlləsinin 181.2.4-cü maddəsi ilə tövsif edilməlidir. Bu zaman faktiki olaraq talanmış əmlakdan çıxış etməklə əməlin həm də bitmiş oğurluq və ya soyğunçuluq, yəni başa çatmış və başa çatmayan cinayətlərin məcmusu kimi tövsfi edilməsinə ehtiyac yoxdur. Yalnız şəxsin faktiki ələ keçirdiyi özgə əmlakının məbləği cinayətkar məqsədlə ehtiva olunan məbləğdən az olsa da, "xeyli miqdarda ziyan"ın hüdudlarında olduqda, məsələn təqsirkar əlli min manat məbləğində özgə əmlakını ələ keçimək məqsədi ilə oğurluq, soyğunçuluq etdiyi halda faktiki olaraq otuz min manat məbləğində ziyan vurduqda, əməl cinayətə cəhd və yaxud başa çatmış və başa çatmayan cinayətlərin məcmusu kimi deyil, faktiki ələ keçirilmiş məbləğə görə başa çatmış xeyli miqdarda ziyan vurmaqla oğurluq və yaxud xeyli miqdarda ziyan vurmaqla soyğunçuluq kimi qiymətləndirilməlidir.*

*Eyni yanaşma şəxs külli miqdarda və yaxud xüsusilə külli miqdarda özgə əmlakını ələ keçimək məqsədi ilə oğurluq, soyğunçuluq, quldurluq cinayətlərini törətdiyi hallarda da tətbiq edilməlidir.*

*Talanmış əmlakın qiyməti müəyyən edilərkən, cinayət törədilən vaxt həmin əmlakın faktiki dəyəri əsas götürülməlidir. Talanmış əmlakın qiyməti barədə məlumat olmadıqda talanmış əmlakın qiyməti ekspert rəyi ilə müəyyən edilə bilər.* [10]

**28.** Hazırkı qərarın qəbul edilməsi ilə əlaqədar «Özgə əmlakını qanunsuz ələ keçirmək və talama işləri üzrə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1999-cu il 14 may tarixli 9N-li qərarının 1-8, 11-31-ci bəndləri qüvvədən düşmüş hesab edilsin.

**S.C.HƏSƏNOVA**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin sədri**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30.04.2021-ci il tarixli qərarı ilə 1-ci bənddə “qanuna görə” sözləri çıxarılmışdır.

[2]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30.04.2021-ci il tarixli qərarı ilə 10-cu bəndin 1-ci cümləsində “hər hansı icraçı” sözləri, “hər bir icraçı” sözləri ilə əvəz edilmişdir.

[3]

**Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30.04.2021-ci il tarixli qərarı ilə 13-cü bəndin birinci cümləsində mötərizə işarəsindən sonra “bilavasitə icraçı tərəfindən törədilən cinayət kimi” sözləri əlavə edilsin, ikinci cümləsi aşağıdakı redaksiyada verilsin və aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:**

***“Cinayət Məcəlləsinin 177.1, 180.1, 181.1-ci maddələri cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxslərdən istifadə etməklə əməlin törədilməsini cinayət tərkibinin əlaməti olaraq nəzərdə tutmadığından həmin hal Cinayət Məcəlləsinin 61.1.5-ci maddəsinə əsasən bu cinayətlərə görə cəza təyin edilərkən cəzanı ağırlaşdıran hal qismində nəzərə alınır. Eynilə cinayət məsuliyyətinə cəlb edilə bilməyən psixi pozuntudan əziyyət çəkən şəxsin cinayətin törədilməsinə cəlb edilməsi CM-in 61.1.5-ci maddəsinə istinad edilməklə cəzanı ağırlaşdıran hal qismində nəzərə alınmalıdır”.***

[4]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30.04.2021-ci il tarixli qərarı ilə 16-cı bəndin 4-cü abzasında “bütün birgə iştirakçıların hərəkətləri” ifadəsindən “birgə” sözü çıxarılmışdır.

[5]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30.04.2021-ci il tarixli qərarı ilə 17-ci bənd yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

*~~17. CM-nin 177-ci maddəsinin qeydinin 3-cü bəndinə müvafiq olaraq oğurluq, soyğunçuluq və ya quldurluq cinayətlərinin «təkrarlıq» əlamətləri üzrə tövsif edilməsi üçün CM-nin 177, 178, 180, 181-ci maddələri ilə, habelə CM-nin 179. 182, 183, 184 və 185-ci maddələri ilə nəzərdə tutulan cinayətlərin törədilməsi (hər hansı ardıcıllıqla) əsas ola bilər. Oğurluq, soyğunçuluq və quldurluq cinayətlərindən əvvəl CM-nin 217, 227, 232 və 235-ci maddələri ilə nəzərdə tutulmuş cinayətlərdən hər hansı birinin törədilməsi də eyni qaydada tövsif edilir.~~*

*~~CM-nin 16.3-cü maddəsinə müvafiq olaraq oğurluq, soyğunçuluq və ya quldurluq törətmiş şəxslərin əməlini yuxarıda qeyd edilən əlamətlə (CM-nin 177.2.2, 180.2.2 və 181.2.2-ci maddələri ilə)həm də o zaman tövsif etmək olar ki, AR CM-nin 177-ci maddəsinin qeydinin 3-cü bəndində sadalanan cinayətlərə görə məhkumluq yeni cinayət törədilən anda ödənilməmiş və ya götürülməmiş olsun və törədilmiş əməlləri CM-nin 177.3.3, 180.3.3 və 181.3.4-cü maddələri ilə hüquqi tövsif etmək üçün əsaslar olmasın. Eyni mənbədən götürülən, vahid qəsdlə əhatə olunan, bir cinayət hərəkətlərinin məcmusunu təşkil edən, bir sıra oxşar cinayət hərəkətlərindən ibarət, davam edən talama cinayətini, təkrar törədilmiş talamadan fərqləndirmək lazımdır.~~*

[6]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30.04.2021-ci il tarixli qərarı ilə 18-ci bəndin 3-cü abzası yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

~~*Əgər şəxs CM-nin müvafiq olaraq, 177.2.1, 177.2.2, 177.2.3, 177.2.4, 177.3.1, 177.3.2, 177.3.3 və ya 180.2.1, 180.2.2, 180.2.3, 180.2.4, 180.2.5, 180.3.1, 180.3.2, 180.3.3, yaxud da 181.2.1, 181.2.2, 181.2.3, 181.2.4, 181.2.5, 181.3.1, 180.3.2, 180..3.3, 181.3.4-cü maddələri ilə nəzərdə tutulmuş cinayətlərin real məcmusunu yaratmayan, ağırlaşdırıcı hallarda bir neçə oğurluq, soyğunçuluq və quldurluq cinayəti törətmişsə, o zaman onun əməli CM-nin daha ağır cəza nəzərdə tutan müvafiq maddəsi ilə tövsif edilməli, hökmün təsviri-əsaslandırıcı hissəsində isə bütün tövsifedici əlamətlər sadalanmalıdır.*~~

[7]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30.04.2021-ci il tarixli qərarı ilə 20-ci bəndin 3-cü abzasından “magistral boru kəmərləri və” sözləri çıxarılmışdır.

[8]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30.04.2021-ci il tarixli qərarı ilə 21-ci bəndin 3-cü abzasının ikinci cümləsində “əlamətləridir” sözü “əlamətidir” sözü ilə əvəz edilmişdir.

[9]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30.04.2021-ci il tarixli qərarı ilə 26-cı bənd yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiya deyilirdi:

~~*26.Xeyli miqdarda və ya külli miqdarda ziyan vurmaq tövsifedici əlamətilə, oğurluq və ya soyğunçuluq cinayəti törətmiş şəxsin əməli tövsif edilərkən, məhkəmələr AR CM-nin 177-ci maddəsinin qeydinin 2-ci bəndini rəhbər tutmalıdır.*~~

[10]

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30.04.2021-ci il tarixli qərarı ilə 27-ci bənd yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiya deyilirdi:

~~*27.Özgə əmlakının bir neçə dəfə talanması hərəkətləri o zaman AR CM-nin müvafiq olaraq, 177.2.4, 180.3.2, 181.2.4 və ya 177.3.2, 180.3.2, 181.3.2-ci maddələrində nəzərdə tutulmuş xeyli və ya külli miqdarda ziyan vurma tövsifedici əlamətləri ilə tövsif edilə bilər ki, talanmış əmlakın ümumi məbləği, müvafiq olaraq, şərti maliyyə vahidinin min mislindən yeddi min mislinədək və ya şərti maliyyə vahidinin yeddi min mislindən artıq olsun və bu hərəkətlərin eyni üsulla törədilməsi və qəsdin xeyli və ya külli miqdarda əmlakın talanmasına yönəlməsi halları təsdiq edilsin.*~~

-

~~*Qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, müvafiq olaraq, xeyli və ya külli miqdarda ziyan vurma tövsifedici əlamətləri ilə özgə əmlakının talanması hərəkətlərinin tövsifi məsələsi həll edilərkən,cinayətkar qrupun bütün iştirakçılarının taladığı əmlakın ümumi dəyəri nəzərə alınmalıdır. Belə hallarda təqsirkarların ayrı-ayrılıqda taladıqları əmlakın məbləği, talanmış əmlakın hansı ölçüdə bölüşdürülməsi onların əməlinin tövsifinə təsir etmir.*~~

-

~~*Şəxs quldurluq basqını törədərkən, zərərçəkmişə dəymiş ziyan şərti maliyyə vahidinin min mislindən az olarsa, AR CM-nin 181.2, 181.3-cü maddələrində nəzərdə tutulmuş başqa ağırlaşdırıcı hallar mövcud olmadıqda əməl AR CM-nin 181.1-ci maddəsi ilə tövsif edilməlidir. Bununla belə quldurluq basqını törətmiş şəxs xeyli və ya külli miqdarda əmlakı əldə etmək məqsədi güdmüşsə, lakin faktiki olaraq həmin məbləğlərdə əmlakı əldə etməmişsə, yaxud əldə etdiyi əmlakın məbləği şərti maliyyə vahidinin min*~~

~~*mislindən azdırsa, bu zaman onun əməli, əldə etmək istədiyi əmlakın məbləğindən asılı olaraq CM-nin 181.2.4 və ya 181.3.2-ci maddəsi ilə tövsif edilməlidir.*~~

-

~~*Məhkəmələr nəzərə almalıdır ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 69-cu maddəsinin (xırda talama) qeydinə müvafiq olaraq, talanmış əmlakın dəyəri şərti maliyyə vahidinin otuz mislindən yuxarı olmadıqda, belə əməl (oğurlama, mənimsəmə, israfçılıq, qulluq mövqeyindən sui-istifadə və ya dələduzluq yolu ilə özgənin əmlakını talama) inzibati xəta hesab edilir. Ona görə də oğurlanmış əmlakın dəyəri şərti maliyyə vahidinin otuz mislindən az olduqda, belə hərəkətlər CM-nin 177-ci maddəsinin tərkibini yaratmır. Bununla belə, AR CM-nin 180 və ya 181-ci maddələrinin tərkibinin yaranması üçün talanmış əmlakın dəyərinin şərti maliyyə vahidinin otuz mislindən az olub-olmaması əhəmiyyət kəsb etmir.*~~

-

~~*Talanmış əmlakın qiyməti müəyyən edilərkən, cinayət törədilən vaxt həmin əmlakın faktiki dəyəri əsas götürülməlidir. Talanmış əmlakın qiyməti barədə məlumat olmadıqda talanmış əmlakın qiyməti ekspert rəyi ilə müəyyən edilə bilər.*~~